**AZƏRBAYCAN RESPUBLİKASI**

**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**

**Ə M R İ**

---

**№ 21** **27 fevral 2013 - cü il**

**Daxili Nəzarət Komissiyası haqqında**

Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Aparatında və digər struktur bölmələrində intizam qaydalarına riayət edilməsi və özünə nəzarət prinsiplərinə əsaslanan daxili nəzarət sisteminin tənzimlənməsi zəruriliyi baxımından "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun 21-ci maddəsini və "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 4.1.8-ci və 6.1-ci bəndlərini rəhbər tutaraq

**ə m r e d i r ə m :**

1. Binəqədi Rayon İcra Hakimiyyətinin Daxili Nəzarət Komissiyası aşağıdakı tərkibdə təsdiq edilsin.

**Komissiyanın sədri:**

| | |
|---|---|
| İlqar Süleymanov | İcra Hakimiyyəti başçısının müavini |

**Komissiyanın üzvləri:**

| | |
|---|---|
| Elnur İmanov | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri |
| Yunis Hüseynov | Hüquq şöbəsinin müdiri |
| Yəhya Əliyev | Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi |
| Kamran Quliyev | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin məsləhətçisi |

2. Binəqədi Rayon İcra Hakimiyyətinin Daxili Nəzarət Komissiyasının Əsasnaməsi təsdiq edilsin (əlavə olunur).

3. Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Aparatında və inzibati ərazi və sahə nzibati ərazi dairələri üzrə nümayəndəliklərində, rayon icra hakimiyyəti başçısının yanında olan qurumlarda və tabeliyində olan hüquqi şəxslərdə daxili nəzarətin həyata keçirilməsi Qaydaları təsdiq edilsin (əlavə olunur).

4. Daxili Nəzarət Komissiyasına tapşırılsın ki, Qaydalara uyğun olaraq müvafiq nəzarətin həyata keçirilməsini təmin etsin.

5. Bu əmrin kollektivdə geniş müzakirəsini təşkil edilməsi İcra Hakimiyyəti başçısı Aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Elnur İmanova həvalə edilsin.

6. Əmr İcra Hakimiyyəti başçısı Aparatının və digər struktur bölmələrinin əməkdaşlarına elan edilsin.

7. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Xaləddin İsgəndərov**